**AZƏRBAYCAN RESPUBLİKASININ**

**NAZİRLƏR KABİNETİ**

**QƏRAR**

**№ 19**

**Bakı şəhəri, 2 fevral 2011-ci il**

# "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edi lməsi normaları"nın təsdiq edilməsi barədə

"Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 dekabr tarixli 362 nömrəli Fərmanının 3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin geyim forması və fərqlənmə nişanları ilə təminatı Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin saxlanılması üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilir.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.Rasi-zadə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 2 fevral tarixli 19 nömrəli qərarı ilə **təsdiq edilmişdir**

**Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları**

| Sıra<br><br>№-si | Geyimin adı | Bir nəfərə düşən əşyanın miqdarı<br><br>(norması) | İstifadə müddəti |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| **I. Ali, böyük və orta xüsusi rütbəsi olan işçilər üçün geyim forması** | | | |
| 1. | Tünd boz rəngli furajka (qadınlar üçün şlyapa) | 1 ədəd | 1,5 il |
| 2. | Tünd boz rəngli isti gödəkcə | 1 ədəd | 4 il |
| 3. | Tünd boz rəngli plaş | 1 ədəd | 5 il |
| 4. | Tünd boz rəngli kitel | 1 dəst | 2 il |
| 5. | Tünd boz rəngli şalvar (qadınlarda - yubka və şalvar) | 1 ədəd | 2 il |
| 6. | Qara rəngli şalvar qayışı (qadınlarda - yubka və şalvar qayışı) | 1 ədəd | 3 il |
| 7. | Tünd boz rəngli yun köynək | 1 ədəd | 2 il |
| 8. | Ağ rəngli uzunqol köynək | 2 ədəd | 2 il |
| 9. | Ağ rəngli qısaqol köynək | 2 ədəd | 2 il |
| 10. | Tünd boz rəngli qalstuk | 1 ədəd | 1 il |
| 11. | Açıq boz rəngli şərf | 1 ədəd | 2 il |
| 12. | Qara rəngli corablar (qadınlarda - dəri rəngli neylon, yaxud qara rəngli yarımyun corablar) | 2 cüt | 1 il |
| 13. | Qara rəngli tufli | 1 ədəd | 1 il |
| 14. | Qara rəngli yarımçəkmə | 1 ədəd | 2 il |
| **II. Böyük və orta xüsusi rütbəsi olan işçilər üçün əlavə geyim forması və ləvazimat** | | | |
| 1. | Tünd boz rəngli kepka | 2 ədəd | 1,5 il |
| 2. | Tünd boz rəngli şalvar | 2 ədəd | 2 il |
| 3. | Tünd boz rəngli uzunqol köynək | 2 ədəd | 2 il |
| 4. | Tünd boz rəngli qısaqol köynək | 2 ədəd | 2 il |
| 5. | Qara rəngli xüsusi kəmər | 1 ədəd | 3 il |

**Qeyd.** Fərqlənmə nişanları ali, böyük və orta xüsusi rütbəsi olan işçilərə hər geyim forması üçün 1,5 il müddətinə verilir.